# KƏLAMÇILARA GÖRƏ İSBATİ-VACİB

***Nazilə Abuzərli,***
*Azərbayca İlahiyyat İnistitutu*
*Dinşünaslıq ixtisasının magistrantı*

## XÜLASƏ

Allah inancı İslamın və digər bütün ilahi dinlərin əsasını təşkil edir. Buna görə də digər inanc əsaslarından öncə, Allahın varlığını və birliyini qəbul etmək əsas şərtdir. Bu məqalədə Allahın varlığı və birliyi (isbati-vacib) Kəlam alimlərinin dəlillərinə əsasən araşdırılmışdır. Məqalədə araşdırmamıza əsasən hüdus dəlilindən başlayaraq, elmi əvvəl dəlilinə qədər İslam alimlərinin isbati-vacib dəlilləri öz əksini tapmışdır. Cövhər (substansiya) və ərəz (aksidensiya) metoduna əsaslanan hüdus dəlilində kainatı yaradan bütün cisimlərin bir cövhərdən və bu cövhərin malik olduğu xüsusiyyətlərdən (ərəzlərdən) meydana gəldiyi qəbul edilir. Cövhər və ərəzlər hadisdir. Onda hadis olan cövhər və ərəzlərdən təşkil edilən aləm də hadisdir məntiqi nəticəsi ortaya çıxır. İmkan dəlili də nəticə etibarilə hüdus dəlili ilə oxşardır. İmkan dəlili ilk dəfə Fərabi və ibn Sina tərəfindən istifadə olunmuşdur. Qayə və nizam dəlili Sokrat dövründən etibarən istifadə olunur. Bu dəlili təbiətdə fövqəladə, həssas və incə bir nizamın hakim olmasına əsaslanır. Qəbuli-əmma dəlili isə bəşəriyyət tarixinin araşdırılması nəticəsində insanlarda olan din və Allah anlayışının fitri olması ilə açıqlanır. Qəbuli-əmma dəlilinə fitrət dəlili də deyirlər. Sonuncu dəlil olan elmi-əvvəl dəlili elmi ilk öyrədən alimə çatana qədər, hər alimin elmi özündənəvvəlki bir alimdən öyrənməsinə əsaslnır. Son olaraq bu elm zənciri əzəli və əbədi olan Allah-Taalada dayanır. Bütün dəlillər Allahın varlığını və birliyini isbat etməyə xidmət edir.

***Açar sözlər:*** *isbati-vacib, cövhər, ərəz, Allahın varlığı, hüdus dəlili, imkan dəlili, qayə və nizam dəlili, qəbuli-əmma dəlili, elmi-əvvəl dəlili.*

## Giriş

İnsan beş duyğu orqanı vasitəsilə dünyanı dərk etməyə çalışır. Duyğu orqanlarımızla yanaşı, müasir dövrün texnoloji yenilikləri olan teleskop, mikroskop, telefon, kompyuter kimi cihazlar da dünyanı dərk etmək üçün insanın xidmətindədir. Ancaq buna baxmayaraq, maddənin hər xüsusiyyəti, təbiətin hər sirri insana hələ də tam məlum deyil.

Yerin, göyün, canlı-cansız bütün kainatın yaradıcısı olan Allahın varlığı, şübhəsiz ki, bir həqiqiətdir. Lakinbuna baxmayaraq, onun varlığını qəbul edənlərlə yanaşı, etməyənlər də mövcuddur. Quran Allahı inkar edənlər haqqında belə buyurur: "Əgər onlara göydən bir qapı açsaq, oradan yuxarı çıxsalar, yenə də (inanmayıb) gözümüz bağlanmış, biz sehrlənmişik deyərlər" ("Hicr" 15/14-15). Necə ki biz mövzuya uyğun olaraq, Allahın varlığını isbat etməyə çalışırıq, Onu inkar edənlər də yoxluğunu isbat etməyə çalışırlar.

Allahın varlıq və birliyinin isbatı mövzusuna "isbati-vacib" deyilməsinin əsas səbəbi, Allahın varlığı ilə yanaşı, birliyini də isbat etməkdir. Allahın varlığını qəbul etdikləri halda, birliyini inkar edən və ona şirk qoşan xeyli sayda insan mövcuddur. Hər dövrdə Allaha inananlar və Onun varlıq və birliyini inkar edənlər olduğu üçünisbati-vacib mövzusu inananları və ilahiyyatçı filosofları, eləcə də kəlam alimlərini məşğul etmişdir. Onlar bu barədə müxtəlif dəlillər ortaya qoymuşlar. Bu növ dəlillər inkarçı kütləyə iman etmələri baxımından müsbət təsir etdiyi kimi, inanclı kütlənin imanını gücləndirmək baxımından da təsirlidir.

Kəlamda Allahın varlığının dəlilləri məsələsi hər zaman müzakirə mövzusu olmuşdur. Günümüzdə də bu mövzu aktualdır və bir çox elm adamları bu mövzuya müraciət edərək, elmi işlər, məqalələr, kitablar yazmışlar. Azərbaycanda bu mövzu ilə bağlı hər hansı bir elmi işə və yaxud da məqaləyə rast gəlməsək də, araşdırmalarımıza əsasən, Türkiyədə dərc edilən bir neçə elmi iş və məqalə əldə edə bildik. Bunlar Erciyes Universitesi Sosyal Bilimler Enstitüsü, Abdullah Yağız tərəfindən hazırlanan "Kurani Kerimde Allahın varlığı ve vahdaniyyetine dair istidlal çeşitleri", Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslam Bilimleri Anabilim Dalı Kelam Bilim Dalı, Ahmet Fatih Gürlek tərəfindən hazırlanan "Kuran bağlamında Aləmin Allahın varlığına Delaleti" və Uludağ Universitesi Sosyal Bilimler Ensitüsü Temel İslam Bilimleri Anabilim Dalı Kelam Bilimdalı, İlhan Güneş tərəfindən hazırlanan "Muhammed Hamdi Yazara göre Allahın varlığının delilleri" adlı elmi işlərdir. Məqalələrdən isə "Bekir Topaloğlunun müəllifi olduğu Allahın varlığı və Lütfi İbrahimin Allahın varlığı hüsusunda Maturidinin dellileri" adlı məqalələri göstərmək olar. Bu elmi işlərdə mövzunu işləmə tərzi fərqli olsa da, əldə edilən nəticə eynidir. Mövzunun hələ də aktual olması əsas iki səbəbə bağlıdır: 1) Allahın varlığını inkar edənlərin mövcudluğu, 2) İman edənlərin imanını daha da gücləndirmək (təqlidi imandan təhqiqi imana keçmək).

Günümüzdə bəzi müxtəlif elm adamları Allahın varlığını məşğul olduqları elm sahələrindən istiqamətlənərək isbat etməyə çalışırlar. Bəzən bu, məntiqli görünsə də, bir çox hallarda bu isbat vasitələri dini baxımdan əsassız və ziddiyyətli xarakter daşıyır (məsələn: riyaziyyatçı birinin Allahın varlığını sonsuzluq işarəsi ilə isbat etməyə çalışması kimi).

Allahın varlığı və birliyi mövzusunda isbatların olması İslam alimləri arasında müzakirələrə gətirmişdir. Kəlam alimlərinə görə, ilahiyyat və nübuvvət mövzularında əqli izah və isbatlar edilə bilər. İslam alimləri isbati-vacibin zəruriliyini insanların inanc əsaslarına kor-koranə bağlanmaq səviyyəsindən çıxması və onları şüurlu şəkildə qəbul etmə ehtiyacı ilə açıqlayırlar. Həmçinin Allahın varlığına iman mövzusunda ağıla gələn şübhələri uzaqlaşdırmaq və etirazlara cavab vermək üçün də buna ehtiyac olduğunu söyləyirlər. Digər tərəfdən, insanların isbati-vacib dəlillərinə qarşı həssaslıqları da xarakterlərinə və yaşadıqları mühitə görə fərqli xüsusiyyət daşıyır. Bəzi insanlara Allaha inanmaq üçün kiçik bir işarə kifayət edərkən, digərləri isə fövqəladə hadisə və ya şiddətli sarsıntı ilə oyanarlar. Allahın varlıq və birliyini göstərən dəlillər çoxdur. Buna əsaslanan Qərb və Şərq teoloqları, habelə kəlam alimləri bu dəlilləri öz əsərlərində qeyd etmişlər. Bəhs edilən isbati-vacib dəlilləri hüdus dəlili, imkan dəlili, qayə və nizam dəlili, qəbuli-əmma dəlili, elmi-əvvəl dəlilindən ibarətdir.

### a) Hüdus dəlili

Kosmoloji dəlillərdən biri olan Hüdus dəlili kəlam alimləri tərəfindən istifadə olunmuşdur. Dəlilin əsas mənbəyi “Qurani-Kərim”dir. Kəlamçılar Hz. İbrahimin Allahı ifadə edən fikirlərini dəlilin ilk istifadə forması kimi qəbul edirlər. Bu mövzudakı dəlillər “Ənam” surəsinin 75-ci və sonrakı ayələridir. Ayəyə görə “Hz. İbrahim günəş, ay və ulduzlara baxaraq Allahı axtarar, lakin onların batdığını və söndüyünü gördükdə, “Mən sönən, itən və batanları istəmirəm, mən hənif olaraq üzümü göyləri və yerləri yaradan Allaha çevirdim”, - deyir (Topaloğlu 2001, 82).

Hüdus, sonradan meydana gələn, yox ikən sonradan var olan deməkdir. Sonradan meydana gələn, yəni yaradılan varlıqlara hadis, onları yaradana isə mühdis deyilir (Topaloğlu 1998, 304). Hüdus dəlili ilk dəfə Mötəzilə alimləri tərəfindən istifadə edilmişdir. Ancaq hüdus dəlilini daha dərin, xırdalıqlarla açıqlayan Əbu Mənsur əl-Maturidi olmuşdur. Hüdus dəlili aləmdəki varlıqların quruluş, xarakter və xüsusiyyətlərinə əsaslanaraq, Allahın varlığını açıqlama dəlilidir. Bu dəlil cövhər və araz metodları ilə izah edilir. Bu mənada, aləmin hadis olduğunu ilk dəfə Cad ibn Dirhəm irəli sürmüşdü. Hüdus dəlilini qısaca belə bir sillogizmlə ifadə edə bilərik: “Aləm bütün hissələri ilə birlikdə hadisdir”.

Hər hədisin də bir yaradıcısı (mühdisi) var. Onda aləmin də bir yaradıcısı var ki, o da Allah-Taaladır.

Cövhər (substansiya) və ərəz (aksidensiya) metodundan istifadə edərək isə aləmin hüdusunu belə açıqlamaq olar:

1. Aləm cövhər və ərəzlərdən meydana gəlmişdir (maddə və surət).
2. Cövhər və ərəzlər hadisdir.

3. Onda hadis olan cövhər və ərəzlərdən təşkil edilən aləm də hadisdir (Gölcük 2001, 161).

Bu sillogizmin birinci cümləsi olan "aləmin cövhər və ərəzlərdən ibarət olması" təcrübə və müşahidəyə əsaslanır. Aləmdəki cisimlər cövhər, həmin cisimlərin xüsusiyyəti, yəni rəngi, hərəkəti, sükunəti, quruluşu və s. kimi keyfiyyətlər isə ərəzlərdir. Cisimdəki ərəzlər dəyişə bilir, amma cismin özü dəyişməz. Cövhər təkbaşına mövcud ola bilər, ərəz isə əksinə, mövcud ola bilməz, məsələn; daş cövhər, onun bərkliyi isə ərəzdir. Cövhər əvəzinə "mövcud", ərəz əvəzinə isə "hadis" terminləri də istifadə olunur. Cövhər və ərəz terminlərinin istifadəsi tənqidə məruz qalsa da, digər terminlərin istifadə edilməsi ilə yanaşı, hələ də onlardan imtina edilməmişdir. Müasir varlıq fəlsəfəsində isə nomen (cövhər) və fenomen (ərəz) terminləri daha çox istifadə edilir.

Aləmin hadis olması onun daim dəyişməsi ilə də isbat edilir. "Əl-Bəqərə" surəsinin 164-cü ayəsində aləmin daim dəyişikliklərə məruz qaldığı, bir vəziyyətdən başqa vəziyyətə düşdüyü bildirilir. Aləmdəki bu dəyişiklik həm müşahidə ilə görülür, həm də ağılla dərk edilir. Dəyişikliyə məruz qalan hər şey hadisdir, yəni sonradan yaradılmışdır. Belə olduqda isə daim dəyişən aləm də hadisdir məntiqi nəticəsi ortaya çıxır.

"Hər hadisin bir mühdisi var" ifadəsi Əhli-sünnə kəlamçıları və bəzi Mötəzilə alimlərinə görə zəruridir. Çünki ağlımızla hər əsərin bir müəllifi, hər musiqinin bir bəstəkarı, hər binanın da bir memarının olduğunu dərk edə bilirik. Bəzi Mötəzilə alimlərinə görə isə hər hadisin bir mühdisi olması istidlalidir. Əhli-sünnəyə görə aləm hadis olduğuna görə, onun var olması da, var olmaması da eynidir. Hadis olan bir şey daha əvvəl, yaxud daha sonra da yaradıla bilərdi. Onun nə vaxt yaranması yaradıcıdan asılıdır. Bu da onun, yəni hər hadisin bir mühdisə möhtac olduğunu göstərir. Bu nəticə zəruri olaraq məlumdur, bunun üçün istitdlala ehtiyac yoxdur.

Bəzi Mötəzilə alimləri isə hər hadisin bir mühdisinin olması ifadəsini istitdlal vasitəsilə açıqlayır. Belə ki, hadis yoxikən var olandır. Deməli, o, var ola da bilər, olmaya da. Varlığı ilə yoxluğu eyni olan bir mümkün varlığın mövcud olması üçün bir yaradıcıya möhtacdır. Başqa bir istitdlala görə isə insan feilləri insanın özünə möhtacdır. Bu möhtaclığın illəti onun hadis olmasıdır. Aləm də hadis olduğuna görə, varlığı üçün bir mühdisə möhtacdır (Topaloğlu 2001, 90-91).

Qeyd etdiyimiz kimi, hüdus dəlilini Əbu Mənsur əl-Maturidi daha geniş və əhatəli açıqlamışdır. Maturidi isbatı xəbər, duyğu və istidlal şəklindəki bilgi vasitəsilə açıqlanmışdır. Maturidinin xəbər vasitəsilə bilgi dedikdə məqsədi "Qurani-Kərim"də təbiətin uca bir güc tərəfindən yaradılmasına diqqəti yönəltməsi olmuşdur. Bu isə istidlala əsaslanan bir dəlildir. Heç kim özünün əzəli bir varlıq olduğunu iddia edə bilməz. Əgər belə bir iddiası olsa, onu doğulandan bəri tanıyanlar bu iddianı təkzib edəcəklər. Bu da hüdus dəlilinə bir

nümunədir (Maturidi 2005, 21). Duyğulara əsaslanan hüdus dəlilinə görə isə, təbiətdə heç bir şey özünün və ya növünün başlanğıcını bilmir, bünyəsində baş verən dəyişiklikləri düzəldə bilmir. Bu da onu başqa bir güc, bilgi sahibinə möhtac edir. İstidlal yolu ilə əldə edilən hüdus dəlilinə görə isə cisimlər hərəkət və sükunət halında olduğuna görə, hər bir cisim hərəkətə və sükunətə bölünür. Bölünən şey isə sonlu olur. Həm də hərəkətlə sükunət əzəldə bir yerdə olmayacaqlarına görə bunlardan biri mütləq hədis olmalıdır. Belə olan halda, "ərəzlər və cisimlər də hadisdir" nəticəsi ortaya çıxır.

### b) İmkan dəlili

Kosmoloji dəlilin ikinci vacib dəlili imkan dəlilidir. Bu dəlil nəticə etibarilə hüdus dəlili ilə oxşardır. Əsası ibn Sina və Fərabi tərəfindən qoyulan imkan dəlilini İslam kəlamçıları və filosofları tənqid məqsədilə istifadə etmişlər. Sonradan isə bir dəlil olaraq istifadə etməyə başlanılmışdı və beləliklə imkan dəlili kəlam dəlillərindən biri olmuşdur (Aydın 2007, 50).

İmkan lüğəvi mənada "bir işin rahat yerinə yetirilməsi, bir hərəkətin reallaşmasında hər hansı bir maneənin olmaması" mənasına gəlir (Kaya 2000, 224). İmkan dəlili aləmdəki varlıqların mümkün olduğuna əsaslanaraq, Allahın varlığını isbat edən dəlildir. Mütləq mövcud dəlili, imkan və vücub dəlili kimi adları olan bu dəlili belə bir sillogizmlə ifadə edə bilərik:

1. Aləm "mümkün" varlıqlardan ibarətdir.
2. Hər mümkün var olmaq üçün, yoxluğuna varlığını tərcih edəcək bir mürəccihə möhtacdır.
3. O da vacibul-vücud olan Allahdır (Gölcük 2001, 165).

Aləmin mümkün varlıqlardan meydana gəldiyini belə isbat etmək mümkündür: 1) Bu aləmdə müşahidə etdiyimiz varlıqların mövcud olması bir həqiqətdir. Ancaq yoxluqlarını düşünmək də mümkünsüz deyil. Yəni, bu varlıqlar heç mövcud olmaya da bilərdilər, yox olmaları da mümkündür. Beləliklə, yoxluqlarını düşünmək mümkünsüz olmayan, varlığı və yoxluğu mümkün olan varlıqlar mümkün varlıqlardır. Aləm də belə mümkün varlıqlardan meydana gəldiyinə görə o da mümkündür. 2) Bu aləmin və aləmdə olanların varlığı insan ağlına görə məcburi deyil. Bunlar cüzlərdən təşkil olunub və daim dəyişir. Varlıqları cüzlərdən təşkil olunub, bir-birlərinə bağlı olan və daim dəyişən varlıqlar zəruri varlıq olmazlar. Onda bu aləmin varlığı məcburi yox, mümkündür.

Yuxarıdakı sillogizmin 2-ci bəndinə görə mümkün, varlığı və yoxluğu zatına bərabər olan və mövcud olmaq üçün mütləq bir səbəbə möhtac olandır. Onda bu aləm də mövcud olmaq üçün bir mürəccihə (üstün tutan) möhtacdır. O da vacibul-vücud olan Allah-Taaladır. Əgər bu mürəccihin Allah olduğuna

etiraz edilsə və hadis varlıqdır deyilsə, onda üç ehtimaldan söz gedə bilər: 1) Bu aləmin özüdür desək, bu illiyyət prinsipinə ziddir. Çünki belə olsaydı, illət məluldan əvvəl olmalıdır. 2) Digər bir ehtimala görə isə mürəccih aləmin bir parçasıdır ki, bu da mümkün deyil. 3) Mürəccih aləmdən kənar bir varlıqdır. Belə olduqda isə təsəlsül (mümkün varlıqların səbəb-nəticə əlaqəsi ilə əzələ doğru əbədi silsilə kimi davam etməsi) və ya dövr baş verməlidir. Bunların ikisi də batildir. Onda mümkünlərdən ibarət olan bu varlıq aləminin illətinin öz cinsindən mümkün bir varlıq olması iddiası etibarsız olduğuna görə, bu aləmin yaradıcısının vacibul-vücud olan Allah-Taala olduğu isbat edilmiş olur (Gölcük 2001, 166).

### c) Qayə və nizam dəlili

Qayə və nizam dəlili Sokrat dövründən etibarən istifadə olunan çox qədim bir dəlildir. Quranda ən çox istifadə edilən dəlil olduğu kimi, bu gün də öz aktuallığını itirməmişdir. İnayət, hikmət, nizami aləm, ixtira dəlili, ibda və s. kimi adlarla da tanınan bu dəlil hüdus və imkan dəlilinə görə daha aydın və konkretdir. Buna görə də hər kəs tərəfindən tez və asan mənimsənilir. İslam fəlsəfə tarixində nizam dəlilini sistemli bir hala gətirən şəxs ibn Rüşd olmuşdur.

Qayə, varlıq aləminin müəyyən bir vəzifəni yerinə yetirməyə əsaslandığı, aləmdə təsadüf və mənasız deyə heç bir şeyin olmadığını irəli sürən fəlsəfi-kəlami bir termindir (Kutuler 1996, 292). Hər bir varlıq mövcudluğu ilə bir qayəyə, məqsədə xidmət edir. Qayə və nizam dəlili kainatdakı varlıqlarda hər kəsin görüb hiss edəcəyi hikmətlər olduğu üçün hər kəsə xitab edir.

İmam Qəzzali "Əl-hikməti fi maxluqatillah azzə və cəllə" adlı əsərini, ibn Rüşd isə "Əl-kəşfu an mnahici-l- ədillə" adlı əsərini bu mövzuya həsr etmişdir (Gölcük 2001, 167). Qəzzali "İhya" adlı əsərində Allahın varlığını bilmək üçün ilk müraciət ediləcək mənbənin Quran olduğunu bildirir. O, Allahın bəyanından başqa bir bəyan olmadığını vurğulayaraq, hüdus və nizam dəlilinə əsas təşkil edən müxtəlif ayələr də qeyd etmişdir (Gazali 1973, 269).

Qayə və nizam dəlili Quranda daha çox istifadə olunan, hər kəsin rahatlıqla dərk edə biləcəyi bir dəlildir. "Qurani-Kərim"də səmaya, kainata baxaraq və oradakı hikmətləri, nizam-intizamı dərk etməyə istiqamətlənmiş bir çox ayə və hədislər mövcuddur. Kainatdakı hər şey bir məqsədə, bir qayəyə xidmət edir. Ulduzlardan tutmuş, yerin öz oxu ətrafında və günəş ətrafında fırlanması, ayın yer ətrafında olan hərəkəti, elektron, protonlara qədər hər bir varlıqda bir qayə, bir məqsəd, bir hikmət olması onu göstərir ki, bütün bunlar elm və qüdrət sahibi olan bir yaradıcının əsərləridir.

İnsanın bədən üzvləri, orqanları belə öz qayəsindən uzaqlaşmır,məsələn; qulaqlarımız bizə ətrafdakıları eşidib, dərk etmək üçün lazımdır. O, eşitmə funksiyasını yerinə yetirərkən heç vaxt məqsədindən uzaqlaşmaz, "Mən eşitmək istəmirəm, görmək istəyirəm" deməz. İnsana verilən orqanların belə nizamlı fəaliyyəti yalnız Allah-Taalanın yaratdığı nizam ola bilər.

İnsanlardan başqa varlıqların hamısı insanın əmrində və xidmətindədir. Onlar insanın yaşaması üçün yaradılmış və onlar arasında da bir nizam vardır. İnsan təbiət nizamını və qanunları kəşf etdikcə heyrətini gizlədə bilməz. Bunları bilməsi isə insan həyatını asanlaşdırır və tədbirli olmasına səbəb olur, məsələn; gecə və gündüzün bir-birini əvəz etməsini, yay və qışın gəlməsini əvvəlcədən bilməsi kimi. Varlıq olaraq fərqi yoxdur, istər atom olsun, istər hüceyrə, istər qarışqa olsun, istərsə də fil, hamısında nizam və qayə görünür, onları yaradıb bu qayələrə istiqamətləndirənin varlıq və birliyini, gücünü müşahidə edirik.

Qayə və nizam dəlilini belə bir sillogizmlə ifadə edə bilərik:

1. Kainat bir-birinə uyğun səbəblər və qayələr məcmuəsini ehtiva edər.
2. Səbəblər və qayələr mənzuməsi olan hər şey elm və ağıl sahibi bir illətin əsəridir.
3. Onda kainat da alim və ağıllı bir illətin əsəridir ki, O da Allah-Taaladır.

Sillogizmin birinci bəndinə görə varlıqlardakı qayə və nizamın çoxunu müşahidə etməklə, digərlərini də onlara qiyas edərək, eyni hikmətlərin onlarda da olduğunu ağlımızla hökm edə bilərik. Sillogizmin ikinci bəndi isə illiyyət prinsipinə görə izah edilir. Bu prinsipə görə, illətin (səbəb) məluldan (səbəblənəndən) daha əvvəl, daha böyük və üstün olması lazımdır. Aləmdəki bu nizam və qayənin elm və ağıldan məhrum biri tərəfindən yaradıldığı ağlabatan deyil.

Aləmdəki nizam və ahənglə bağlı üç ehtimal irəli sürülür: 1) Bu nizam əzəldən bəri belədir. Naturalist, təbiətçi və pozitivistlər belə düşünürlər. Hüdus və imkan dəlili ilə kainatın əzəli olmadığı isbat edilmişdir. Aləm əzəli olmadığına görə, ondakı nizam da əzəli ola bilməz. Buna görə də bu iddia əsassızdır. 2) Aləmdəki bu nizam əzəldən bəri yox, sonradan öz-özünə və təsadüfən olmuşdur. Bu, öz-özünə və təsadüfən baş verə bilməz; məsələn: ehtimal nəzəriyyəsinə əsasən, 1-dən 10-a qədər rəqəmlərin yazıldığı daşları torbadan bir-bir götürmək şərti ilə ilk cəhddə "1" rəqəmini götürmək şansı ondabirə bərabərdir. İkinci cəhddə "1" və "2"ni ard-arda alma şansı yüzdəbir ehtimaldır. 1-dən 10-a qədər rəqəmlərin hamısını ardıcıllıqla alma şansı isə on milyonda bir ehtimaldır. 3) Sonradan mövcud olan bu nizam başqa biri tərəfindən yaradılmışdır. Aləmdəki nizamı yaradan aləmin özü və ya bir parçası ola bilməz. Aləmdən kənar aləm cinsindən olan başqa bir aləm tərəfindən də yaradıla bilməz. Əks halda,

təsəssül və dövr olar ki, bu da batildir. Belə olduqda tək bir ehtimal qalır ki bu da aləmdəki nizamın Allah tərəfindən yaradılmasıdır (Gölcük 2001, 168-170).

### d) Qəbuli-əmma dəlili

Bu dəlil insanlıq tarixinin araşdırılması nəticəsində insanlarda olan din və Allah anlayışının fitri (doğulandan bəri) olmasına əsaslanır. İnsanlıq tarixinə nəzər salsaq, dövründən, irqindən, milliyyətindən asılı olmayaraq, insanın olduğu hər yerdə mütləq bir tapınaq, ibadət izinə rast gəlirik. İnsanlar, xüsusilə ilkəl qəbilələr, mədəni nemətlərdən uzaq olduqlarına baxmayaraq, məbədsiz, ibadətsiz, tapınaqsız, ümumi desək, dinsiz yaşamamışlar. Haqq və batil olmasından asılı olmayaraq, insanlar bir ilahi qüdrətin varlığına fitrən inanmışlar.

Hər bir insan Allahın varlığını içində hiss edər, hətta ən qatı ateist belə böyük bir fəlakətlə qarşılaşdıqda Allaha sığınar, bildiyi müraciət formaları ilə yalnız Ona yalvarar, yalnız Ondan kömək istəyər (Topaloğlu 2009, 61). İnsanlarda Allah inancını daha çox başlarına bir fəlakət gəldiyi zaman, başqa sözlə desək təbiət hadisələri qarşısında acizlikdən Allaha sığındıqları zaman görə bilərik. Bolluq və rifah şəraitində, heç nəyə ehtiyac olmadan yaşadıqları vaxtlarda isə insanlar içlərindəki bu duyğunu gizlədib Allah inancından uzaq qalırlar "(Kafirləri) ətrafına kölgə salan uca dağlar (yaxud) qara buludlar kimi dağlar bürüdüyü zaman onlar dini (ibadəti) Allaha məxsus edərək, yalnız ona dua edərlər. Allah onları sağ-salamat quruya çıxartdıqda içlərindən bəziləri (küfrlə iman arasında) orta mövqe tutar, (Bəziləri isə öz küfründə qalar). Bizim ayələrimizi yalnız çox xain, nankor olanlar danarlar!" ("Loğman" 31/32). Ayədə də qeyd edildiyi kimi, fəlakət və problem olanda, əksər hallarda fitrət nəfsə və ağla qalib gəlir, insan qürur və inaddan əl çəkib Allaha üz tutur, Ondan kömək istəyir.

Adi vaxt inanmayan kimi görünən və yaxud inanmadıqlarını etiraf edənlərin də çətinə düşdükləri vaxt Allaha üz tutmaları, onların inanma ehtiyacı ilə yaradıldığını və yaradanın yaratdığı insanlarda Allaha üz tutma duyğusunu verməsi də onun varlıq və birliyini açıq-aydın göstərir. Əgər insanların yaradıcısı eyni olmasaydı, onda bütün insanlar ona qarşı eyni duyğulara sahib olmazdılar (Gölcük 2001, 170). Beləliklə, yaşadıqları dövr, ərazilər və mədəniyyətləri bir-birindən fərqli olan millətlərdə müşahidə edilən bu ilahi fikir din duyğusu Allahın varlığından xəbər verir (Klavuz 1987, 60).

### e) Elmi-əvvəl dəlili

İmkan dəlilinə istinad edən "elmi-əvvəl dəlili" ibn Məlka tərəfindən istifadə olunmuşdur. İbn Məlkaya görə, peyğəmbərlər və alimlər də bu dəlildən istifadə etmişlər. Elm öyrənən şəxs elmi, şübhəsiz ki, bir alimdən öyrənir, o da bir alimdən

öyrənmişdir, o alim də başqa bir alimdən öyrənmişdir. Burada tələbə-müəllim zəncirinin sonsuza qədər təsəlssül etməsi mümkün deyil, təsəlssül batildir. Bu zəncirin sonu olacağına görə, sonda "ilk müəllim"də dayanacaq. Əgər biz bu zənciri insanlığın ilk atası olan Hz.Adəmə qədər davam etdirsək də, elmlərin hamısı Hz.Adəmə qədər çatmaz. İlk öyrədən kimdirsə, onda dayanar. O isə Allahdır (Gölcük 2001, 171). Buradakı elm, tələbənin müəllimindən eşidərək öyrəndiyi elm deyil. Müəllim söyləyən, tələbə isə eşidən və başa düşəndir. Bəs tələbədəki düşüncəni, anlayışı, təsdiqi və inkarı meydana gətirən kimdir? Müəllim deyil, çünki o, sadəcə söyləyəndir. Əgər elə olmasaydı, onda hər müəllim istədiyi şəxsə arzu etdiyini öyrədərdi. Halbuki bu mümkün deyil. Necə ki, elə tələbə var elmdə müəllimini ötüb-keçir, eləsi də var, müəllimsiz alim və hakim olur. Deməli, ilk müəllim ilk alim olan Allahdır (Topaloğlu 2001, 99).

## Nəticə

Allahı tanımaq insanda fitri bir duyğudur. Eyni ilə hörümçəkdə torqurma hissinin və maqnitdə dəmiri cəzbetmə xüsusiyyəti olduğu kimi, insanda da inanma hissi fitri olaraq mövcuddur. Xaricdən və daxildən gələn hər hansı bir müdaxilə ilə səlim yaradılışı pozulan insan üçün Allahı tanımaq, Onun varlığını qəbul etmək çox çətindir. Buna görə də isbati-vacib dəlillər bütün dövrlər üçün aktual olmuşdur.

Kəlamçıların ilk isbati-vacib dəlili olan hüdus dəlili aləmin öz-özünə yox, sonradan bir yaradıcı tərəfindən yaradılması prinsipinə əsaslanır. Müasir dövrdə elmlər inkişaf etdikcə, xüsusən kimya sahəsindəki araşdırmalara əsasən maddələrin tədricən yox olması və bəzilərinin də azalması məlum olur. Bu da maddənin əbədi olmamasını bildirir. Əbədi olmayan şey isə əzəli ola bilməz. Bu nəticə inkarçı cərəyanlardan biri olan materializm nəzəriyyəsinin əsassız olduğunu ortaya qoyur. Digər təbiət elmləri sahəsində maddə üzərində aparılan tədqiqatlarda isə maddənin öz-özünə deyil, uca bir yaradıcı tərəfindən yaradılması nəticəsi ortaya çıxmışdır.

İmkan dəlil də quruluşu və nəticəsinə görə hüdus dəlili ilə oxşardır. Buna görə də imkan dəlili hüdus dəlilinin başqa bir isbat şəkli olaraq qəbul edilir. İmkan dəlilinin ilk dövrlərdən etibarən kəlamçılar tərəfindən istifadə edildiyi söylənilir. İmkan dəlilinin məqsədi bir vacibin mövcudiyyətini isbat etməkdir. Vacib "varlığı özündən olub, başqasına möhtac olmayan" deməkdir. İmkan dəlilində kainatın yaradılmış (hadis) və var olmaq üçün başqasına möhtac olduğu isbat edildikdən sonra, bunun məntiqi nəticəsi olaraq hər hadisin bir mühdisi (yaradıcısı), hər mümkünün də bir səbəbi olduğunu qəbul etmək zərurəti ortaya çıxır.

Qayə və nizam dəlili ilə bağlı nümunələrə "Qurani-Kərim"in bir çox ayəsində rast gəlmək mümkündür. Canlı və cansız bütün varlıqların araşdırılmasına əsasən hər bir varlıq həm yaradılış, həm daxili funksiyaları, həm də

digər varlıqlarla olan münasibəti baxımından heyrətamiz bir nizama, bir təşkilatlanmaya sahibdir. Təbiətdəki bu nizam öz-özünə və ya təsadüfən ola bilməz. Bütün bunlar Tanrının əsəridir.

Qəbuli-əmma dəlili Allahın varlığının insanda fitri bir duyğu olması ilə açıqlanmışdır. Dinindən, irqindən, milliyyətindən asılı olmayaraq insanlar təhlükəli, fövqəladə hadisələrlə qarşılaşdıqda uca bir yaradıcının varlığını dərk edərək Ona üz tuturlar. Hətta inkarçılar da belə vəziyyətlərdə inanclarını göstərərək Allahdan kömək istəyirlər.

Elmi-əvvəl dəlilində ilk alimin Allah olduğu nəticəsi əldə edilmişdir. Öncə bir çox elmlərin Hz. Adəmə qədər gedib-çıxdığı qəbul edilsə də, "Hz. Adəmə bu elmləri yalnız Allah öyrədə bilər" məntiqi nəticəsi ortaya çıxır. Çünki yaratdığı ilk insana elmi ilk müəllim olan Allah öyrətmiş olar. Quran ayəsində də deyildiyi kimi "Allah Adəmə bütün isimləri öyrətdi" ("Bəqərə" 2/31).

Araşdırmanın yekun nəticəsi olaraq qeyd etmək istərdik ki, şüurlu varlıqların Allahın varlığını dərk etməsi üçün özünə, kainata, ətrafdakı varlıqlara baxmaları kifayətdir. Bunların cüzi bir hissəsini də yaratmağa qadir olmayan insan və kainat Uca Yaradıcının möhtəşəm əsəridir.

## ƏDƏBİYYAT

Aydın M. (2007). *"Din Felsefesi",* İzmir: İlahiyyat Vakfı Yayınları

Ebu Mansur el-Matüridi. (2005). *Kitabu`t Tevhid tercümesi*. çeviren: Bekir Topaloğlu, Ankara: İSAM.

Gölcük Ş, Toprak S. (2001). "*Kelam",* Konya: Tekin kitabevi.

İmam Gazali, (1973). *İhyau `Ulumi`d Din tercümesi*. çeviren: Ahmed Serdaroğlu, İstanbul: Bedir yayınevi.

Kaya M. (2000). *"İmkan",* İstanbul: Diyanet Vakfı Neşriyyat Pazarlama Ticaret Sağlık ve Turizm A.Ş., (TDV İslam Ansiklopedisi. 22. Cilt).

Kutuler İlhan, (1996). "Gaiyyet", İstanbul: Diyanet Vakfı Neşriyyat Pazarlama Ticaret Sağlık ve Turizm A.Ş. (TDV İslam Ansiklopedisi 13. cilt).

Nureddin es-Sabuni. Matüridiyye Akaidi, (2015). İstanbul: M.Ü İlahiyyat Fakultesi Vakfı Yayınları, (No:259).

Topaloğlu B. (2001). "*İslam Kelamcılarına ve Filozoflarına göre Allahın varlığı (İsbati Vacib)",* Ankara: Diyanet İşleri Başkanlığı.

Topaloğlu B. (1998). "*Hudus*", İstanbul: Diyanet Vakfı Neşriyyat Pazarlama Ticaret Sağlık ve Turizm A.Ş., (TDV İslam Ansiklopedisi. 18. cilt).

Taftazani, (1991). *"Kelam ilmi ve İslam Akaidi (Şerhul-akaid)"*. İstanbul: Dergah yayınları.

Topaloğlu Bekir, Yavuz Yusuf Şevki, Çelebi İlyas, (2009). "İslamda İnanç Esasları", İstanbul: Çamlıca yayınları.

***Абузерли Назила***

## ИСБАТ АЛЬ-ВАДЖИБ ПО МНЕНИЮ ИССЛЕДОВАТЕЛЕЙ КЯЛАМ

## РЕЗЮМЕ

Вера в Аллаха составляет основу Ислама и всех других божественных религий. Поэтому уверование в существование и единство Аллаха является наиболее важным условием чем другие основы веры. В данной статье рассматривается атрибут Бытия Аллаха и Его единство (Исбат аль-ваджиб) на основании доводов ученых – богословов. В статье содержатся доводы исбат аль-ваджиб ученых Ислама начиная от доказательства "худус" (возникновения) до доказательства "ильм аль аваль" (первичой мудрости). В доказательстве "худус", основывающемся на методе "джовхар" (субстанции) и "араз" (акциденции) считается, что все тела, образующие вселенную, берут свое начало от одной субстанции и особенностей (акциденций), которыми она обладает. Субстанция и акциденции являются сотворенными. Отсюда следует вывод, что мироздание, состоящее из сотворенных субстанции и акциденций, тоже сотворено. Довод имкан (вероятности), в конечном итоге, аналогичен доводу натиджа (вывода). Довод "габули амма" (вероятности) впервые был применен Фараби и Ибн Сина. Довод "гайа" (цели) и "низам" (порядка) используется еще со времен Сократа. Данный довод основывается на том, что в природе царит изумительный, чуткий и предельно четкий порядок. В результате изучения всеобщей истории человечества довод общего воззрения подчеркивает, что понятие религии и Аллаха в людях является их врожденным качеством (фитрат)Данный довод также называют доводом «фитрат» (врожденности). Довод "ильм аль аваль" (о первичности мудрости) основывается на том, чтодо того как «ильм» (знания) дошли до одношо ученого каждый ученый был учеником другого ученого. В конечном итоге эта цепь исходит от Аллаха – Изначального и Вечныого. Все доводы стремятся доказать существование Аллаха и Его единство.

**Ключевые слова:** *доказательство "исбат аль-ваджиб", джовхар (субстанция), араз (акциденция), существование Аллаха, доказательство "худус", довод "имкан" (вероятности), довод "гайа" (цели) и "низам"*

*(порядка), довод "габули амма" (общего воззрения), довод "ильм аль-авваль" (о первоначальности мудрости).*

**Nazila Abuzarli**

# ISBAT AL-WAJIB IN KALAM SCHOLARS' THOUGHT

## ABSTRACT

Belief in God is the basis of Islam and all other divine religions. Therefore, it is essential to accept the existence and unity of God before the basis of other beliefs. In this article, the problem of God's existence and unity (isbat al-wajib) has been introduced according to the evidences of Kalām scholars. According to our study the article reflects isbati-vajib (important proof) evidences of the Islamic scholars starting from the Proof of Huduth to the proof of ilmi awwal. The Proof of Huduth, based on the substance (jovhar) and the accidence (araz) method, is assumed that all objects that make up the universe come from a substance and the properties (araz) possessed by this substance. Johvar and araz are hadith. Therefore such logical conclusion arises that the universe consisting of jovhar (substance) and araz (accidence) is also Hadith. The possibility evidence consequently is similar to the Proof of Huduth. The possibility evidence was first used by Farabi and Ibn Sina. The purpose and order evidences had been used since the time of Socrates. This evidence is based on the dominance of an extraordinary, sensitive and subtle order in nature. The evidence of qabulu amma is explained by the fact that at the result of universe history the religion and God concept in human beings are innate. Qabulu amma evidence is also called fitrat (nature) evidence. The last evidence of primary science is based on fact that every scientist prior to teach a science learns it from other scientist. Finally, this chain of knowledge stands in Allah, the perpetual and eternal God. All the evidence serves to prove God's existence and unity.

***Keywords:*** *isbat al-wajib (proof of the necessary being), jovhar (substance), araz (accidence), existence of God, huduth evidence, possibility evidence, purpose and order evidence, evidence of qabuli amma, evidence of ilmi awwal*

**Çapa tövsiyə etdi: i.f.d. Ü.N.Abuzərov**